**Qrup işi:**

Ərizəçi 1947-ci ildə doğulub. Ərizəçi 82 faiz səhmlərinin Dövlətə məxsus olan maye qaz idxalı şirkətində minoritar səhmdar və icraçı direktor idi. 2006-cı ilin iyulunda ərizəçinin şirkətdəki fəaliyyəti ilə əlaqədar dələduzluğa cəhd etməsi ilə bağlı cinayət işi başlanıldı. Xüsusilə, o, 2000 və 2006-cı illər arasında nəticə etibarı ilə şirkətə böyük maliyyə itkiləri vermiş maye qazın Qazaxstandan və Ukraynaya idxalı üzrə sxem hazırlamaq üzrə ittiham olmuşdur. İttihama əsasən, o, qazı birbaşa istehsalçılardan almaqdansa, vasitəçi şirkətlərin xidmətlərindən istifadə edirdi və bu da qaza olan qiymətin xeyli dərəcədə artmasına gətirib çıxarırdı. Bu vasitəçi şirkətlərin həmçinin, onun oğlanları ilə bağları vardı. Sonra vasitəçi şirkətlər tərəfindən 594,067 ABŞ dolları məbləği və cərimələr ilə bağlı mülki məhkəmə iddiası ilə qarşılaşdıqda, o, məhkəmə prosesində iddianı etiraf etdi. Bu münasibətdə, 2006-cı ilin iyulunda istintaq orqanları cinayət işi qaldırdı və o dindirildi. Özünü müdafiə ilə bağlı, ərizəçi onun şirkətinin qazın birbaşa istehsalçılardan ala bilmədiyini bildirdi, çünki istehsalçıların satmağa razı olduqları qazın minimal həcmi onun şirkətinin 5 illik ehtiyaclarını aşırdı. Buna görə, onun şirkətinə lazım olan miqdarda qazın birbaşa istehsalçılardan alınması mümkün deyildi. Bundan başqa, istehsalçılar ilkin ödənişi 100 faiz dəyərində qəbul edirdilər və onun şirkətində bu qədər məbləğ yox idi. O həmçinin bildirdi ki, bütün yerli qaz idxalçıları eyni üsuldan istifadə edirlər və onun şirkəti tərəfindən alınmış qazın dəyəri yerli bazar qiymətlərindən aşağı idi. Sonra o, bildirdi ki həmin istehsalçılar ilə onun şirkətinin ödədiyi qiymətlər arasındakı fərq nəqliyyat xərcləri, sertifikatlaşdırma, sığorta və digər faktorlar idi. O, həmçinin onun oğlanlarının vasitəçi şirkətlərlə hər hansı bir münasibətdə olduqlarını inkar etdi. Ərizəçi müxtəlif hallar üçün çağırıldı və hər bir halda istintaq orqanlarının çağırışlarına gəldi və onlarla əməkdaşlıq etdi. 2006-cı ilin oktyabr ayında ərizəçinin evində axtarış aparıldı, şəxsi kompüteri əldə edilərək oradan müxtəlif sənədlər götürüldü. İş materiallarında ərizəçinin istintaqın göstərişlərini icra etmədiyi və ya istintaqın aparılmasına mane olması haqda heç bir qeyd yoxdur.

2006-cı ilin mayında ərizəçinin oğlanları qeyd edilən cinayət işi çərçivəsində şübhəli şəxs qismində cəlb edildilər, lakin barələrində həbs qətimkan tədbiri seçilmədi. Sonra ərizəçi ilə bağlı 14 müxtəlif cinayət işi qaldırıldı və onların hamısı bir cinayət işi altında birləşdirildi.

2 may 2007-ci ildə ərizəçi həbs olundu və yuxarıda qeyd olunmuş faktlara əsasən 5 may 2007-ci il tarixində işlədiyi şirkətə aid malların geniş həcmdə mənimsənilməsinə cəhdlə bağlı rəsmi ittiham olundu. Həmin gün işi aparan prokuror, aşağıdakı əsaslarla 30 günlük həbs qətimkan tədbiri seçilməsi üçün Rayon Məhkəməsinə müraciət etdi: cinayətin ağırlığı, şahidlərə təsir etmək və yeni cinayət törətmək riski.

5 may 2007-ci il tarixində Rayon Məhkəməsi prokurorun müraciətini qismən təmin etdi və ərizəçinin 15 gün müddətinə həbsi ilə bağlı qərar verdi. Məhkəmə araşdırdı ki:

*"...ərizəçinin mühakimə olunduğu akt, məhkəməyədək həbsə almağa imkan verən son dərəcə ağır cinayət hesab olunur. Məhkəmə ittiham edilən cinayətin xüsusilik və ciddiliyini və işin çətinliyini nəzərə alır və hesab edir ki, araşdırmanın ilkin mərhələsində təqsirləndirilən şəxsin başqaları ilə (dindirilməyən oğlanları ilə) əlaqəyə girə bilməsi olduğu güman edilir.*

*Prokurorun istinad etdiyi digər səbəblər, məhz qaçmaq və şahidlərə təsir etmək və ya sübutları məhv etmək əsassızdır və çox az inandırıcıdır."*

8 may 2007-ci ildə Appelyasiya Məhkəməsi ərizəçi tərəfindən irəli sürülmüş arqumentlərə dair heç bir əsas göstərmədən aşağı instansiya məhkəməsinin verdiyi qərarı təkrarlayaraq, 5 may 2007-ci il tarixli qərarı qüvvədə saxladı.

11 may 2007-ci il tarixində prokurorun müraciəti ilə ərizəçinin həbsdə saxlanılması 30 günədək uzadıldı. O, cinayətin ağırlığına, şahidlərə təsir göstərmə riski, yenidən cinayət törətmə riski və qaçma riski kimi səbəblərə əsaslandı və məhkəmə həbs müddətinin uzadılması üçün prokurorun gətirdiyi dəlillərlə razılaşdı. Ərizəçinin hərəkətləri və davranışında hər hansı əhəmiyyətli dəyişiklik baş verməmişdi.

20 iyul 2007-ci il tarixində ərizəçinin vəsatəti əsasında yeni qərar qəbul edilərək qətimkan tədbirini ev dustaqlığı ilə dəyişdirildi. Həmin qərardan nə ərizəçi, nə də prokuror şikayət verdi.

12 mart 2008-ci il tarixində Rayon Məhkəməsi ərizəçini girov müqabilində buraxmağa dair qərar qəbul etdi və ona qoyulmuş məhdudiyyətləri heç vaxt pozmadığını və 10 aydan çox həbsdə olduğunu qeyd etdi.

9 iyun 2011-ci il tarixində ərizəçi 2 may 2007-ci il tarixindən 12 mart 2008-ci il tarixinədək həbs olunduğu dövrdə təqsirləndirildiyi ittihamlar üzrə bəraət qazandı. Eyni zamanda ona qarşı sürülmüş digər 13 ittihamlardan bəraət qazandı və yalnız maye qazın qanunsuz satışı üzrə bir məsələdə təqsirli bilindi və 1000 avro dəyərində cərimələndi. Nə ərizəçi, nə də prokuror məhkəmənin bu son qərarına etiraz etmədi. Ərizəçinin oğlanları bəraət qazandı.

Ərizəçi 5-ci maddənin 1-ci hissənin c bəndinə və 5-ci maddənin 3-cü maddəsinə əsasən hüquqlarının pozulduğunu iddia edir.

*Hazırladı: Günel Sevdimalıyeva*